


# Azər Paşa Nemətov son mənzilə yola salındı

## Xalq artisti İkinci Fəxri xiyabanda dəfn olunub

**Azərbaycan mədəniyyətinə daha bir ağır itki üz verib. Milli teatr sənətində müstəsna xidmətləri olmuş görkəmli rejissor, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının İdarə Heyətinin sədri, Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının bədii rəhbər-direktoru Azər Paşa Zəfər oğlu Nemətov aprelin 9-da ömrünün 76-cı ilində vəfat edib.**

Əvvəlcə mərhumla Akademik Milli Dram Teatrında vida mərasimi keçirilib.

Mərasimdə mərhumun ailə üzvləri, yaxınları ilə yanaşı, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva, Mədəniyyət Nazirliyinin nümayəndələri, mədəni-ictimai xadimlər və media mənsubları iştirak edib.

**Xalq artistinin vəfatı ilə bağlı "Şərq"ə danışan Xalq artisti Valeh Kərimov kədərini dilə gətirib:** "Mən burada işləmirəm. Mingəçevirdə qalıram. Nə vaxt teatra gəlsəm, onda görüşüb, salamlaşırdıq. Allah rəhmət etsin. Azərbaycan teatrına itkidir, zəhməti çoxdur. Həm yetişdirdiyi aktyorlar, universitetdəki tələbələri ilə əziyyəti olan insan idi. Rejissorlarımızdan biri idi. Biz haradasa 40 ildən çoxdur tanış idik. Universitetdə paralel təhsil alırdıq. Mən aktyorluq üzrə oxuyurdum, o da rejissorluq. O zamandan salamımız var idi. Ondan başqa tədbirlərdə iştirak edirdik, tamaşaların premyeralarında iştirak edirdik".

**Xalq artisti Rasim Balayev mərhumla 58 ildir ki, dostluq münasibətinin olduğunu söyləyib:** "Azər Paşa müəllimlə biz 1965-ci ildə universitetə daxil olmuşuq. O, rejissorluğa, mən aktyorluğa. 58 ildir ki, dost idik. Sənətkar ailəsində dünyaya gəlmişdi, atası Zəfər Nemətov da rejissor idi. Martın 10-da məni çağırdı, sənətkar medalı verdi, görüşdük. Elə bir-birimizlə danışırdıq, maşına qədər ötürürdü. Bir az ağrıyırdı, mənim də ağrılarım var idi. O mənə təskinlik verirdi, mən ona. Bir sözlə, Azər Paşa Nemətovun bu həyatdan getməyi Azərbaycan sənəti, teatrı və mədəniyyəti üçün böyük itkidir. İnsanları əvəz etmək olmur. Hərənin öz yeri var. Mən həm də böyük dost itirmişəm".

**Vida mərasimində çıxış edən Xalq artisti Nurəddin Mehdixanlı bildirib ki, Azərbaycan mədəniyyətinin böyük nümayəndəsi ilə vidalaşırıq:** "Düşünürəm ki, bu, bizim Azər Paşa Nemətovla son görüşümüz deyil. Çünki bundan sonra da onun quruluş verdiyi tamaşalarda oynayıb, onu xatırlayacağıq. Onun hazırladığı tamaşalar oynanıldıqca da xatırlanacaq. Mənim onunla ilk tanışlığım Rüstəm İbrahimbəyovun bir əsərində oynadığım tamaşada olub. Firəngiz Mütəllimova ilə sözsüz bir rolum var idi. İki gün bundan əvvəl onun quruluş verdiyi "Cəhənnəm sakinləri" tamaşasında rol oynayırdım, Azər Paşa müəllim də adəti üzrə lojada əyləşmişdi. Sona qədər tamaşanı izləyirdi, sonda isə ayaqüstə aktyorları alqışlayırdı. Sözsüz bir rolla başlayan yaradıcılıq yolumuz teatr səhnəsində onunla bərabər böyük rolların ifaçısına çevirdi. O çox istedadlı, fərqli düşünən, fərqli oxumağı bacaran rejissor idi. O, aktyoru ağır yükün altında qoymadan istədiyinə nail olurdu. Çalışdığı bütün teatrlarda çox maraqlı tamaşalar səhnələşdirirdi. Düşünürəm ki, dünyanı tərk edib gedənlər özlərindən sonra əməllərini qoyurlar. Bu qədər nəhəng insanların bizi tərk etməsi qalanlara örnək, görk olmalıdır. Həyat, yaşamaq, yaratmaq varkən gücümüzü, enerjimizi sənətə sərf edək. Özümüzdən sonra xatırlanacaq, alqışlanacaq işlər qoyaq. Azərbaycan peşəkar teatrının 150 yaşı var. Biz dünyanın teatr mədəniyyətinin dəyərli bir parçasıyıq. Azərbaycan tamaşaçısı Azər Paşa Nemətovu böyük sevgi ilə xatırlayacaq. Kollektiv də həmçinin. Bizim burda gözəl günlərimiz, uğurlu tamaşalarımız olub".

**Xalq artisti Hacı İsmayılov isə mərhum direktordan danışarkən göz yaşlarını saxlaya bilməyib:** "O heç vaxt istirahət etmədi. Çalışdığı illər ərzində heç vaxt məzuniyyətə çıxmadı. Bütün fikri teatrı inkişaf etdirmək idi. Teatra böyük məhəbbətlə bağlı idi. Həmişə bütün tamaşaları əvvəldən sona qədər izləyərdi".

Vida mərasimində həmçinin Mədəniyyət Nazirliyinin nümayəndələri, Millət vəkili Qənirə Paşayeva, sabiq nazir Əbülfəz Qarayev də iştirak edib.

Vida zamanı Xalq artisti Şəfiqə Məmmədovanın halı dəyişib. Sənətçidən mərhumla bağlı fikirlər almaq istəsək də, o, təzyiqinin aşağı düşdüyünü və özünü yaxşı hiss etmədiyini söyləyib.

*Xalq artisti Azər Paşa Nemətov İkinci Fəxri xiyabanda dəfn olunub.*

**Samirə**

Şərq .- 2023.- 11 aprel.- S.6.